ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 12 (24.149)

21 yanvar 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik

Prezident İlham Əliyev 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib

Qanlı 20 Yanvar faciəsindən 33 il keçir. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 33-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət edib.

Dövlətimizin başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad etdi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

***

Qanlı Yanvar hadisələrindən 33 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 33 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan

övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanı açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misligörünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların həlak olması ilə nəticələndi. Sanki bunları görməyən Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev onlardan fərqli olaraq həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bunun nəticəsidir ki, şəhid ailələrinin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.



AZƏRTAC

Naxçıvanda 20 Yanvar faciəsinin 33-cü ildönümü yad olunub

Yanvarın 20-də dövlət və hökumət nümayəndələri Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəliblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra dövlət və hökumət nümayəndələri şəhidlərin məzarlarını, xiyabandakı Ana abidəsini və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək güllər qoyub, şəhidlərin xatirəsinə ehtiramlarını bildiriblər.

"Şərq qapısı"

Xalqımızın milli qürur tarixi olan 20 Yanvar unudulmayacaq

Azərbaycanın Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunun təşkilatçılığı ilə 20 Yanvar – Ümumxalq Hüzn Gününə həsr olunmuş anma mərasimi keçirilib.

Mərasim Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb. Şəhidlərimizin ruhuna dualar oxunub. Qanlı Yanvar faciəsinin dəhşətlərini əks etdirən sərgi ilə tanışlıq olub.

Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyev, Qars valisi Türkər Öksüz və Qafqaz Universitetinin dosenti Yaşar Kop çıxışlarında keçmiş Sovet İttifaqı rəhbərliyinin 33 il əvvəl Azərbaycana qarşı törətdiyi hərbi cinayətin səbəb və məqsədlərindən bəhs ediblər.

Çıxışlarda vurğulanıb ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə günahsız insanlara qarşı törədilən hərbi cinayət təkcə bir xalqa deyil, bəşəri dəyərlərə və insan haqlarına qarşı təcavüzdür. Diqqətə çatdırılıb ki, Azərbaycan xalqı bu amansızlıqlara mətinliklə dayanaraq sınmayıb, əyilməyib. Əksinə, Azərbaycan xalqı küçə və meydanlara axışaraq öz hüquq və azadlığını müdafiə edib, qəhrəmanlıq dastanı yaradıb. Ona görə də 20 Yanvar hadisələri Azərbaycan tarixində faciə olduğu qədər də qəhrəmanlıq salnaməsidir.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi heyəti, Türkiyənin yerli hakimiyyət orqanlarının rəhbərləri, Qafqaz Universitetinin professor, müəllim və tələbələri mərasimdə iştirak ediblər.

Azərbaycanın İrandakı səfirliyində 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar mərasim keçirilib. Mərasimdə İran ictimaiyyətinin nümayəndələri və Tehranda yaşayan Azərbaycan vətəndaşları iştirak ediblər.

Əvvəlcə Qanlı Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycanın İrandakı səfiri Əli Əlizadə mərasimdə çıxış edərək 20 Yanvar hadisələrinin Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağını, onun məğrurluğunu nümayiş etdirən faciəli hadisə olduğunu bildirib. Qeyd olunub ki, 20 Yanvar faciəsini törətməkdə məqsəd Azərbaycan torpaqlarının bir hissəsini Ermənistanın tərkibinə vermək və müstəqilliyi uğrunda ayağa qalxmış xalqın mübarizəsini boğmaqdan ibarət olub. SSRİ rəhbərliyi qətliamı gizlətməyə çalışsa da, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qətiyyəti nəticəsində bu faciə olduğu kimi dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. SSRİ rəhbərliyinin havadarlığı ilə Azərbaycanın torpaqları işğal olunsa da, 30 il sonra Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin qətiyyəti və müdrik rəhbərliyi ilə şanlı Ordumuz zəbt olunmuş torpaqlarımızı işğaldan azad etdi.

"Xoca" və "Qanlı Yanvar" filmlərinin prodüseri, Azərbaycanda tanınmış İranın Əməkdar mədəniyyət

işçisi Əyyub Daneşvər Azərbaycan xalqına qarşı sovet rəhbərliyinin 70 il ərzində göstərdiyi ədalətsiz mövqeyindən danışıb. Bu filmlərin çəkilişi üzərində işləyərkən 20 Yanvar hadisələrinin şahidləri ilə görüşdüyünü, onları dinlədiyini və Azərbaycan xalqının ağrı-acısını dərindən başa düşərək filmlərdə canlandırmağa çalışdığını vurğulayıb. Haqqını və hüququnu, həmçinin torpaqlarının işğalına son qoymağı tələb edən Azərbaycan xalqına qarşı törədilən bu qətliamın insanlığa qarşı törədilən cinayət hesab olunduğunu və bu acının Azərbaycan xalqı ilə ortaq bağları olan İran xalqı tərəfindən də dərin hüznlə qarşılandığını vurğulayıb.

Tədbir 20 Yanvar hadisələrinə dair qısametrajlı filmin və bədii videoçarxın nümayişi, eləcə də şəhidlərin xatirəsinə açılmış ehsan süfrəsi ilə davam edib.

AZƏRTAC

Muxtar respublikamızın bütün rayonlarında 20 Yanvar şəhidlərinin əziz xatirəsi ehtiramla anılıb

Şərur rayonu

XX əsrin təlatümlü 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində xalqımız bir tərəfdən imperiyanın irticaçı dairələrinin Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq siyasətinin yeni təzahürü ilə qarşılaşmış, digər tərəfdən isə bir əsrdə ikinci dəfə öz müstəqil dövlətini yaratmaq uğrunda milli azadlıq mübarizəsinə qalxmışdı.

Bunun qarşısını almaq üçün sovet imperiyası planlarına Naxçıvandan başladı və 1990-cı il yanvarın 19-da ermənilərin Naxçıvan ərazisinə hücumu təşkil edildi. Muxtar respublika ilk şəhidlərini verdi. Ərazi bütövlüyümüzə uzanmış bu qara əllər tezliklə özünü 20 Yanvar hadisələrində göstərdi.

Qanlı 20 Yanvar hadisələri zamanı şəhid olan igid eloğullarımız Azərbaycanın tarixinə parlaq səhifələr yazdılar, milli azadlığımız, müstəqilliyimiz üçün yol açdılar. 20 Yanvarın Azərbaycan tarixində xalqın qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyəti vardır. Məhz bu dönməz, mübariz xalqın birliyi sayəsində ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 27 sentyabr 2020-ci ildə düşmənin növbəti cəhdinin qarşısının alınması üçün başlanan əks-hücumda 30 illik Qarabağ, Şuşa həsrətinə son qoyuldu. İgid oğullarımız Vətən müharibəsində "Qarabağ Azərbaycandır!" şüarı ilə qəhrəmanlıq tarixi yazdılar. Oğullarımızın qəhrəmanlığı dünyaya səs

saldı. Qazanılan Qələbə illərdir, torpaq həsrəti ilə yaşayan insanların həsrətinə son qoymaqla yanaşı, Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canından keçən igidlərimizin ruhunu sevindirdi.

Hər il olduğu kimi, bu il də yanvar ayının 20-də Şərur rayonunun idarə, müəssisə və təşkilatlarının, eləcə də ictimaiyyətin nümayəndələri Qanlı Yanvar hadisələrində və torpaqlarımızın müdafiəsi zamanı həlak olanların əziz xatirəsini yad etmək üçün Şərur şəhərindəki Şəhidlər xiyabanına gəlmiş, buradakı şəhid məzarlarına tər qərənfillər düzmüşlər.

Həmin gün Azərbaycanın Milli qəhrəmanları Məhərrəm Seyidovun Şərur şəhərindəki, Səyavuş Həsənovun Yengicə kəndindəki büstləri, Kərim Kərimovun Qarahəsənli kəndindəki məzarı da ziyarət edilmiş, məzarların üstünə gül dəstələri qoyulmuşdur.

Babək rayonu

Yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Babək Rayon İcra Hakimiyyəti aparatının, idarə, müəssisə və təşkilatların, eləcə də rayon ictimaiyyətinin nümayəndələri Babək şəhərində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gələrək gül dəstələri qoyub, ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən övladlarının əziz xatirəsini dərin ehtiramla anıblar. Qanlı Yanvar məzmunca terror aksiyası, faciə, bəşəriyyət qarşısında cinayət olsa da, xarakter etibarilə xalqımıza qarşı yönəldilmiş açıq hərbi təcavüz olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mücadilə əzmini qıra bilmədi. Törədilmiş faciə azadlıqsevər xalqımızın mübarizliyini bir daha ortaya qoydu. Həmin gecə şəhid olan övladlarımız xalqımızın qəlbində əbədiyaşarlıq qazanıb.

Tarix sübut edir ki, Azərbaycan xalqı yenilməzdir, güclüdür, milli məsələlərdə bir yumruq kimi birləşə bilir. Ötən əsrin əvvəllərində müstəqilliyini yenidən bərpa edən iradəli xalqımız 2020-ci ildə Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoydu, mənfur düşmənin ayağını doğma torpaqlarımızdan kəsdi. Bu gün Qarabağ Müzəffər Liderin rəhbərliyi altında dirçəlir, geniş abadlıq-quruculuq işləri aparılır. Müharibənin bitməsindən iki il keçməmiş Azərbaycan işğaldan azad edilmiş Füzulidə və Zəngilanda Beynəlxalq Hava limanları inşa etdi. Bu, dövlətimizin iqtisadi gücündən, Ali Baş Komandanın uzaqgörən, müdrik siyasətindən, keçmiş köçkünlərin tez bir vaxtda öz doğma ata-baba yurdlarına qayıtmasına göstərilən həssas münasibətdən xəbər verir.

Qeyd edək ki, Vətən müharibəsində Babək rayonundan olan 17 nəfər müqəddəs şəhidlik zirvəsinə ucalıb.

Ordubad rayonu

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu bölmələrinin erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı gerçəkləşdirdiyi hərbi müdaxilə – kütləvi terror aktı nəticəsində Bakıda 147 mülki vətəndaş öldürülmüş, 744 dinc sakin yaralanmışdır. Ancaq 20 Yanvar qırğını Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi.

Otuz üç il bundan əvvəl baş vermiş bu qanlı hadisəyə ilk olaraq öz münasibətini bildirən şəxs Ümummilli Lider Heydər Əliyev olmuşdur. O zaman Moskvada təqib və məhrumiyyət şəraitində yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev böyük çətinliklə 21 yanvarda ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, burada keçirilən mətbuat konfransında çıxış edərək Bakıda misilsiz qanlı aksiyanı törədən şəxsləri kəskin şəkildə tənqid etmişdi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş siyasəti uğurla davam etdirir və 20 Yanvar şəhidlərinin ailələrinin, eləcə də Vətən müharibəsi şəhid və qazilərinin sosial müdafiəsi daim diqqət mərkəzində saxlanılır.

Tarix bir daha sübut etdi ki, Azərbaycan xalqı yenilməz, məğrur xalqdır. 2020-ci ilin payızında Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz bu birliyin nəticəsində 44 gün davam edən Vətən müharibəsində Tarixi Qələbə qazandı, ərazi bütövlüyümüz təmin olundu, haqqədalət öz yerini tapdı.

Ordubad rayonunda da 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla yad edilib. Həmin gün rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri Ordubad şəhərindəki Şəhidlər xiyabanına gələrək Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsini yad etmiş, şəhid məzarları üzərinə tər qərənfillər qoymuşlar.

Culfa rayonu

Yanvarın 20-də Culfa Rayon İcra Hakimiyyəti aparatının, idarə, müəssisə və təşkilatların, eləcə də rayon ictimaiyyətinin nümayəndələri Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Culfa şəhərinin Heydər Əliyev prospektindəki Şəhidlər abidə kompleksinə gəlmiş, abidənin önündən keçərək, tər qərənfillər qoymaqla ehtiramlarını bildirmişlər.

20 Yanvar milli ideallar uğrunda mübarizə aparan xalqımızın tarixinə yazılan şanlı bir səhifədir. Elə bir səhifə ki törədilməsindən 33 il ötməsinə baxmayaraq, bu gün də bizə bu mübarizənin haqq səsi olduğunu xatırladır.

20 Yanvar faciəsinə ilk siyasi qiymət Ulu Öndərimiz tərəfindən verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında Ümummilli Liderimiz tərəfindən hazırlanan və onun təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi.

20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı və gəncləri üçün örnəkdir. Onlardan nümunə götürən Azərbaycan igidləri 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımızı azad etməklə ölkəmizə Tarixi Qələbəni qazandırdı. Bu azadlıq mücadiləsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz düşmənə diz çökdürdü. İşğal altında qalan torpaqlarımız cəsur əsgərlərimizin rəşadəti ilə düşmən caynağından xilas oldu. Bununla da Azərbaycan işğal altında olan torpaqlarını azad etməklə 20 Yanvar şəhidlərinin də qisasını almış oldu. Şəhidlərimizin haqları ödənilməzdir. Canlarını Vətən uğrunda fəda edən şəhidlərimiz əbədi olaraq qəlbimizdə yaşayacaq, əsrlər keçsə də, dönə-dönə xatırlanacaqlar. Onların qanının hədər axmadığını, o qanlar bahasına bugünkü azadlığımızın, müstəqilliyimizin, dövlət quruculuğumuzun, qüdrətli Azərbaycanın bünövrəsinin qoyulduğunu gələcək nəsillər də böyük ehtiramla xatırlayacaq.

Kəngərli rayonu

Otuz üç il bundan əvvəl baş vermiş 20 Yanvar hadisələri Azərbaycanın müstəqillik tarixinə şərəfli gün, qəhrəmanlıq simvolu kimi həkk olundu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının xüsusi hazırlıqlı ordusu tərəfindən planlı şəkildə Azərbaycan xalqına qarşı törədilən faciə xalqın yaddaşında silinməz iz qoydu. Həmin gecədə ölümün üzünə mərdliklə baxan silahsız kütlə sarsılmazlığını, birliyini bir daha sübut etdi. Xüsusi hazırlıqlı hərbçilər tərəfindən törədilən qanlı gecədə 147 nəfər xüsusi amansızlıqla qətlə yetirilmiş, 744 vətəndaşımız ağır yaralanmışdı.

20 Yanvar hadisələrinə ilk hüquqi-siyasi qiymət Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən verilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin

Ardı 3-cü səhifədə

siyasətini ardıcıllıqla və qətiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, sağlamlıq imkanlarını itirənlərin sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar qəbul edilmişdir. Bu dəhşətli hadisədən 33 il ötür. Amma əvvəlki illərdən fərqli olaraq indi şəhidlərimizin ruhu şaddır. Çünki artıq onların qisası alınmışdır. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə başlayan və Tarixi Qələbə ilə başa çatan Vətən müharibəsi ilə ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi.

Xalqımızın tarixinə qəhrəmanlıq günü kimi yazılmış 20 Yanvar faciəsinin 33-cü ildönümü Kəngərli rayonunda da qeyd olunub. Yanvarın 20-də idarə, müəssisə və təşkilatların nümayəndələri Qıvraq qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidənin qarşısından keçərək onların xatirəsini dərin ehtiramla yad edib, abidə önünə çiçəklər düzüblər.

Şahbuz rayonu

Yanvarın 20-də rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri 20 Yanvar şəhidlərinə ehtiramlarını bildirərək anım tədbirində iştirak ediblər. Şəhidlər abidə kompleksində keçirilən tədbir zamanı kompleksin önünə tər qərənfillər düzülüb.

Qanlı Yanvar Azərbaycan xalqının azadlıq istəyinin qarşısını almaq cəhdi ilə yanaşı, həm də ermənilərin işğalçılıq siyasətinin həyata keçirilməsinə xidmət edən terror aktı idi. Ermənilərin faciədən bir neçə gün əvvəl Naxçıvana hücumları bunu bir daha təsdiq edir. 1990-cı il yanvarın 18-də Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" tarixi Qərar qəbul etdi. Bu Qərara əsasən Naxçıvan MSSR sovet imperiyasının tərkibindən çıxdı.

Tarix sübut etdi ki, Azərbaycan xalqı yenilməzdir, məğrurdur. Həmrəy olmağı bacarır. Buna 2020-ci ilin sentyabrında başlanan və 44 gün davam edən Vətən müharibəsində bütün dünya bir daha şahidlik etdi. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz dövlət-xalq-ordu birliyinin nəticəsində ərazi bütövlüyümüzü təmin etdi, şəhidlərimizin qisası alındı, torpaqlarımız işğaldan azad edildi, tarixi ədalət öz yerini tapdı.

Sədərək rayonu

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq otuz üç il keçir. Sovet imperiyasının hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz dünya tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları həmin gün canlarından keçərək şəhidlik zirvəsinə ucaldıblar. Böyük itkilərlə, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnən bu faciə, eyni zamanda xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu bir daha nümayiş etdirdi.

20 Yanvara qədər artıq Naxçıvanın Ermənistanla sərhədində ermənilər sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçmişdilər. Bakıda və Azərbaycanın digər bölgələrində sovet ordusunun törətdiyi qanlı cinayətlərlə Naxçıvana erməni hücumunun zaman etibarilə üst-üstə düşməsi hadisələrin eyni mərkəzdən idarə olunduğunu sübut edirdi. Sərhəd bölgəmiz Sədərəyi qoruyan könüllülər oldu. Həmin gün 8 şəhid verildi. Erməni quldurları Naxçıvan torpaqlarını ələ keçirmək məqsədilə 1990-1993-cü illərdə dəfələrlə bu qədim yurd yerinə hücum ediblər. Daha dəqiq desək, bu qısa müddətdə Sədərəkdə 14 dəfə qanlı döyüş olub. Həmin döyüşlərdə 108 nəfər şəhidlik zirvəsinə ucalıb.

20 Yanvar faciəsinin 33-cü ildönümü Sədərək rayonunda da anılıb. Rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri Sədərək kəndindəki Şəhidlər xiyabanını ziyarət edərək Vətən yolunda qurban getmiş insanların xatirəsinə ehtiramlarını bildiriblər.

Naxçıvanda 20 Yanvar şəhidləri bir dəqiqəlik sükutla yad edildi

Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da qəhrəman şəhidlərimizin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Hüzn əlaməti olaraq dövlət bayraqları yarıyadək endirilib, sərnişinlərin, nəqliyyatın hərəkəti bir dəqiqəlik dayandırılıb.

Qanlı Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar muxtar respublikanın şəhər və rayonlarında şəhidlərin xatirəsi anılır, 20 Yanvar hadisələri ilə bağlı anım mərasimləri keçirilir.

Yanvarın 20-də səhər saatlarından başlayaraq Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını və Vətən müharibəsində şəhid olan qəhrəmanların məzarını ziyarət edən insanlar şəhidlərin xatirəsini ehtiramla anır, məzarları üzərinə tər güllər düzürlər.

Qeyd edək ki, tarixin bu günü 147 günahsız dinc sakin şəhid olub, 744 nəfər yaralanıb. Bu günü Qara Yanvara çevirən keçmiş sovet birləşmələri, onların bu çirkin niyyətlərini icra edən ermənilər xalqımızın azadlıq amalını beşiyində boğmaq istəyirdilər. Ancaq gözünü qırpmadan ölümün üzərinə gedən bu günün qəhrəmanları Vətən uğrunda candan, qandan keçməyin müqəddəsliyini öyrətdi sonrakı nəsillərə. O gecə şəhidlik məqamına yüksələn insanların qanı yerdə qalmadı. Şəhid olan oğulların qisası döyüş bölgəsində alındı, qeyrətli Vətən oğullarının qanlarını damarlarında daşıyan cəsur, igid oğullarımız Qələbə müjdəsi ilə şəhid ulularımızın ruhlarını sevindirdi. 20 Yanvar şəhidlərinin də ən böyük məramı olan azad, müstəqil Azərbaycan arzularımız gerçəkləşdi.

Xəbərlər şöbəsi

"Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər?"

Dünyanın yaradılışından bu günədək tarixin heç bir dönəmində, hər hansı vəhşi, barbar millət, hətta məşhur terroristlər belə erməni qədər qəddar, ağır, ümumbəşəri cinayətə imza atmağa müvəffəq ola bilməyiblər. Bəşəriyyətin "qeyri-adi", "nadir tapıntıları"ndan hesab olunan bu insanlıqdan uzaq məxluqlar harada yüksək sivilizasiya görüblərsə, ona qənim kəsilməyə, ya dağıdıb məhv etməyə, ya da özününküləşdirməyə çalışıblar. Hər vəchlə maddi-mədəni sərvətlərini məhv etməyə, tarixi irsini mənimsəməyə çalışdıqları əsas hədəf isə bütün məsələlərə təmkinli şəkildə tolerant düşüncə ilə, humanistliklə, xeyirxahlıqla yanaşan, canına susayan düşməninə belə aman diləyərkən qıymağa əli gəlməyən Azərbaycan xalqı olub. Təəssüf ki, özünü demokratik aktların müdafiəçisi, insan hüquqlarını qorumaqda nümunə sayan böyük ölkələr, beynəlxalq təşkilatlar ümumbəşəri soyqırımlar törədən, iqtisadi, mədəni, təbii fəlakətlərə səbəb olan bu "nadir tapıntılar" barədə, nəinki cəza mexanizmi tətbiq edir, hətta nəsli tükənər deyib adlarını "Qırmızı kitaba" saldıraraq qoruyub saxlamağa da çalışırlar...

Birinci və İkinci Qarabağ müharibələri arasındakı, təxminən, 30 ilə yaxın işğal dövründə ermənilər Azərbaycanın qədim torpaqlarında ucaldılan bir sıra tarixi-memarlıq abidələri ilə yanaşı, İslam mədəniyyətinin izlərini silmək naminə bu müqəddəs dinə inancın simvolları hesab edilən məscidləri də dağıdaraq məhvə düçar ediblər. Bununla da kifayətlənməyib, nəinki xalqımıza, hətta bütün müsəlman aləminə nifrətini ən bariz şəkildə məscidləri murdarlayaraq, orada heyvanlar, o cümlədən də donuzlar saxlayaraq nümayiş etdiriblər. Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı yayılan videokadrlar da bu nankor millətin heysiyyətsizliyini bir daha əyani sübut etdi... Rəsmi məlumatlara görə, 30 il işğalda qalan Azərbaycan torpaqlarında təsbit olunan tarixi-dini abidələrin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Erməni vandalizminin qurbanına çevrilən Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi və digərlərinin adlarını qeyd etmək olar. Bəşəriyyət əleyhinə yönəlmiş bütün bu vandalizm hərəkətləri birmənalı olaraq beynəlxalq humanitar hüququn, o cümlədən YUNESKO-nun 1954-cü il Haaqa Konvensiyasının və onun iki protokolunun, eləcə də 1970-ci il Konvensiyası kimi tənzimləmə sənədlərinin kobud şəkildə pozulması deməkdir...

Təəssüf ki, ermənilər bəşəri cinayətlərindən əl çəkmədikləri kimi, dünya nəhəngləri, beynəlxalq təşkilatlar da ikili standartlarından üz döndərmək, haqqı müdafiəyə yönəlmək istəmirlər. Ölkə Prezidenti cənab İlham Əliyev keçirdiyi müxtəlif rəsmi görüşlərdə, xarici və yerli telekanallara verdiyi müsahibələrində, işğaldan azad olunan tarixi torpaqlarımıza səfərləri zamanı dəfələrlə bu məqamı gündəmə gətirərək kəskin, qətiyyətli mövqe ortaya qoymuşdu. Dövlət başçısının 2020-ci ildə işğaldan azad olunan Zəngilan rayonuna səfəri zamanı insanlığa yaraşmayan, utancverici mənzərə barədə səsləndirdiyi fikirlər beynəlxalq təşkilatları qəflət yuxusundan ayıltmaq üçün ən kəskin siyasi bəyanatlardan oldu: ***"...Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası, səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər..."***

Cənab Prezidentin böyük ürək yanğısı ilə dilə gətirdiyi ən ağrılı məqamlardan, acı həqiqətlərdən biri də məhz bəzi müsəlman ölkələrinin bu məsələyə etinasız yanaşması, biganə, laqeyd münasibət göstərməsidir. Azərbaycanın haqlı mövqeyini dəstəkləməkdən boyun qaçırmaq azmış kimi, həm müharibə zamanı, həm də ondan sonrakı dövrdə məscidləri dağıdan, İslama qarşı fobiya yaradan, mədəni vəhşiliklər törədən uşaq qatilləri ilə görüşüb, bir masa arxasında gələcək əlaqələri müzakirə etmək, ölkəmizə qarşı cəfəng hədələr yağdırmaq isə özünü dünyaya əsl müsəlman kimi tanıtdırmağa çalışan bir ölkənin siyasi donla pərdələdiyi əsl kimliyinin təkzibi, simasının ifşası deməkdir. Mehriban, səmimi dost kimi görünən, potensial imkanları sıfra bərabər olan bəzi ölkələrin Ermənistanla münasibətləri həqiqətdə tarixi gerçəkliyin yenidən reallaşacağı qorxusundan doğan bəlli ortaq mənfəətdən uzağa gedə bilməz. Görmüşük ki, əsl dost acı olsa da, həqiqətləri söylər, dostun səhvini üzünə deyər ki, nəticə çıxarıb bir daha yanlışa yol verməsin. Amma reallıq odur ki, bu dostlar, nəinki səhvlərini bir-biri ilə bölüşüb, onları aradan qaldırmağa can atır, hətta həmin acı yanlışları şirin günah səviyyəsinə qaldırmaqdan belə usanmır, batil əməli savab iş hesab edirlər. 44 gündə bütün dünya ermənilərinə, onların havadarlarına hərbi-siyasi dərs keçən, mükəmməl rəhbərliyi ilə işğaldan azad olunan ərazilərimizdə böyük quruculuq işlərinə start verən, bütün tarixi-mədəni abidələrin, o cümlədən də məscidlərin bərpasını həyata keçirən qalib ölkənin qətiyyətli Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi ***"...Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu "dost ölkəyə" 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan..."***

Nail ƏSGƏROV

Güllələnən qərənfildən cənnət rəmzi xarıbülbülə...

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəli Azərbaycan xalqı üçün məşəqqətli, o cümlədən taleyüklü sınaq dövrü kimi xarakterizə olunmaqdadır. Tarixin bütün mərhələlərində səbri ilə sınağa çəkilən xalqın Vətən eşqi, azadlıq duyğuları dəfələrlə közərdilmiş, lakin söndürülə bilməmişdir. Gələcəyə olan nikbin baxışını heç bir vəchlə itirməyən, eyni zamanda dəfələrlə keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmindən, əzmkarlıq ruhundan əsla vaz keçməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdir. Müasir tariximizə əbədi həkk olan və özlüyündə həm də milli qüruru ehtiva edən hadisələrdən biri də məhz 20 Yanvardır. Azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilən bu qanlı faciənin xronologiyasına qısaca nəzər yetirək.

Məlum olduğu kimi, 1988-1989-cu ildən etibarən soydaşlarımızın öz dədə-baba torpaqlarından kütləvi deportasiyası, əzəli və əbədi torpağımız olan Qarabağın qondarma üsullarla Ermənistana birləşdirilməsi çağırışı və bu istiqamətdə müxtəlif cəhdlər davamlı xarakter almağa başlamışdı. Geniş xalq kütləsi SSRİ rəhbərliyinin ermənipərəst siyasətinə, xəyanətkar və anti-Azərbaycan mövqeyinə etiraz əlaməti kimi haqlı olaraq ayağa qalxdı. Ovaxtkı mərkəzi hökumət – rəsmi Kreml isə baş verən hadisələr müqabilində qərəzsiz və ədalətli mövqe sərgiləmək yerinə xalqımıza qarşı hərbi-siyasi cinayət işləməyi daha məqbul hesab etdi. Belə ki, sovet ordusuna məxsus müxtəlif döyüş hissələrinin xalq kütləsi üzərinə yeridilməsi, habelə kütləvi terror yüzlərlə günahsız insanın ölümü və yaralanması ilə nəticələndi. 1990-cı ilin 20 yanvar gecəsi sovet ordusunun Bakıda törətdiyi qanlı qırğın, öz vətəndaşlıq hüquqlarını ifadə etmək, qorumaq üçün ayağa qalxmış dinc, silahsız insanların amansızlıqla qətlə yetirilməsi, şübhəsiz ki, bütövlükdə, insana və insanlığa qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi hər zaman tarixdə qalacaq. Görkəmli dövlət xadimi Heydər Əliyevin dediyi kimi: ***"20 Yanvarda Azərbaycanın azadlıqsevər, vətənpərvər insanları xalqımıza qarşı göstərilən ədalətsizliyə görə, Azərbaycan torpaqlarına erməni silahlı qüvvələrinin təcavüzünün qarşısı alınmadığına görə və milli azadlığa nail olmaq üçün ayağa qalxdılar, etirazlarını bildirdilər. Onları boğmaq üçün, əzmək üçün Sovet İttifaqının qoşunları, sovet ordusunun hissələri ölkəmizə basqın etdi. Ancaq qəhrəman övladlarımız özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdılar".***

20 Yanvar şəhidlərinin əziz xatirəsinə sonsuz sevgi və hörmət əlaməti olaraq 2 milyona yaxın insanın iştirakı ilə keçirilən matəm yürüşü, o dövrün bütün şərtlərini nəzərə alsaq, tarixin gördüyü nadir hadisələrdəndir. Bu xüsusda bir fakta xüsusilə diqqət etmək lazımdır. Belə ki, xalq mübariz və məğrur Vətən oğullarını son mənzilə yola salarkən həm də tarixdə tayı-bərabəri az görülən qərənfil izdihamını dünyaya nümayiş etdirdi. 20 Yanvar qırğını təkcə azadlıq mücadiləsi aparan insanların deyil, eyni zamanda bu günün əsas simvolunu xarakterizə edən qərənfil gülünün taleyini dəyişdi. Bu gün biz torpağın üzərində rahat gəzək deyə torpağın altında əbədi uyuyan şəhidlərimizin məzarı üzərinə qoyulan və matəm gülü hesab edilən qərənfilin taleyi isə bir az fərqlidir. Belə ki, bu gül 20 Yanvar hadisələrinə kimi al-əlvan rəngi, təkrarsız ətri, həmçinin gözoxşayan zərafətiylə gözəllik rəmzi hesab edilirdi. Ən xoş günlərə şahidlik edər, xeyir işlərdə əllərdə tutular, hədiyyə edilərdi. Bəli, Qanlı Yanvar hadisələrinə qədər qərənfil sevgi gülü idi, ağı da, qırmızısı da...Yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan Azərbaycan övladları həmin sərt, çovğun və sazaq qış gecəsində vətənpərvərliyin ən ali məqamı – şəhidlik zirvəsinə ucaldılar. 90-cı illərin sərt qışı insanların taleyi kimi sanki digər gülləri də vaxtından əvvəl soldurmuşdu. Təkcə soyuğa davamlı olan qərənfildən başqa. Bu

"Qərənfil – şəhid qanı", rəssam – Ləman Məmmədova

səbəbdən də şəhidlərimizin izdihamlı dəfnində məzarlara mübariz ruhlu şəhidlərimizin al qanına qərq olmuş Bakının kəndlərindən maşın-maşın gətirilən, Abşeronun gül – gözəllik rəmzi olan tər qərənfillər qoyulub. Məhz o gündən bəri gözəlliyin, zərafətin təcəssümü olan qərənfil Vətən övladlarına əbədi sevgi və minnətdarlığın ifadəsinə çevrilib.

İllərdir, azadlıq, müstəqillik kimi müqəddəs amallar uğrunda canından keçən şəhidlərimizin yasını qərənfilin acı qırmızısı ilə bəzəyirdik. Qəhər içərisində göz yaşlarımızı silib şəhid xatirələrinə ucaldılan abidələrə və məzarlarının önünə dəstə-dəstə tər qərənfillər düzürdük. Daim onun adı gələndə qeyri-ixtiyari kövrəlib, köks ötürər, "Kaş ki bu əsrarəngiz gülü bir anlıq olsa belə Şuşada görək", – deyə düşünərdik.

Bu gün artıq qürurla deyə bilirik ki, ürəklərdə nisgil olan qərənfillər solmuş və küskün deyil, bütün güllər kimi qərənfillər də xarıbülbül qoxuyur, xarıbülbülə bənzəyir. 3 ildir ki, müasir tariximizin şanlı səhifələrini yazan və bu şərəfli yolda canından, qanından keçən igid Vətən oğullarımızın xatirəsini qərənfillə birgə xarıbülbülün məğrurluğu ilə yad edirik.

Qeyd edilməlidir ki, yalnız Azərbaycanın qədim şəhəri Şuşada bitən xarıbülbülün el arasında tarixən "sancı bülbül", "qanlı bülbül" kimi növləri də olub və xarıbülbüldən fərqli olaraq dünyanın müxtəlif yerlərində bitirlər. Ümumiyyətlə, Qarabağ münaqişəsi başlanan ilk dövrdən etibarən xarıbülbül xalqımızın mübarizə rəmzini ehtiva etməkdədir. Xarıbülbül sevdasını isə ən gözəl şəkildə yurd sevgisi, Vətən həsrəti çəkən Qarabağ xanının qızı, şuşalı Ağabəyim ağa dilə gətirib:

"Vətən bağı" al-əlvandır,
Yox üstündə xarıbülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı sarı, bülbül?!

Dövrün məşhur fransız ictimai xadimi Qabriel Mirabon deyirdi: "Ədalət topaldır, yavaş-yavaş yeriyir, lakin gedəcəyi yerə gec-tez çatır". Bu xüsusda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tarixi ədaləti bərpa etməklə yanaşı, şairlərimizin, yazıçılarımızın, bütövlükdə, Azərbaycan xalqının 30 illik Qarabağ nisgilinə, xarıbülbül həsrətinə 44 gündə son qoydu. Xarıbülbül günümüzdə həm də torpaqlarımızın düşmən işğalından azadlığı, ərazi bütövlüyümüzün bərpası, eləcə də xalqımızın səadəti, birliyi, xoş güzəranı naminə canını qurban vermiş qəhrəman şəhidlərimizin xatirəsinin rəmzi olaraq qəbul edilir, müzəffər Ordumuzun qələbə əzmi, zəfər simvolu kimi tanınır.

"Xarıbülbül", rəssam – Qəhrəman Tağıyev

Bu gün hər birimiz böyük iftixarla qeyd edirik ki, Birinci və İkinci Qarabağ savaşında şəhidlik zirvəsinə ucalan Vətən oğullarının qisası məhz döyüş meydanında alındı, dosta sevinc, düşmənə gözdağı olan "Dəmir yumruq" əməliyyatı sayəsində Ermənistan diz çökərək kapitulyasiya aktına imza atdı. Dünya bir daha başqasının torpağına göz dikənlərin aqibətini, beynəlxalq hüququn zamana və məkana görə tətbiqinin sonda hansı nəticələrə gətirib çıxardığını gördü. 20 Yanvar kimi, İkinci Qarabağ müharibəsi də milli qürurun, ləyaqətin, o cümlədən Azərbaycan xalqının möhkəm iradəsinin təcəssümü olduğu bütün dünyaya bəyan edildi. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun qazandığı tarixi və parlaq Zəfər şəhidlərimizin ruhuna böyük ehtiram olmaqla yanaşı, xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməyəcəyinə təminat verməkdədir.

Qürurlu haldır ki, əzəli və qədim torpağımız Qarabağ bu gün döyüş meydanından quruculuq

"20 Yanvar gecəsi", rəssam – Cavid İsmayılov

meydanına çevrilir, səngərlərin, istehkamların yerində irimiqyaslı quruculuq işlərinin, habelə infrastruktur layihələrinin təməli qoyulur. Bəli, biz 30 ildir, heç bir səmərə verməyən danışıqlar prosesini və bu müddətdə münaqişəni öz gücümüzlə cəmi 44 günə həll etdiyimiz kimi, ərazilərimizin bərpası və quruculuğu işlərini də eyni iradə və əzmlə reallaşdırırıq. Bunun üçün də ölkəmiz istər maddi və mənəvi resurslara, istərsə də kifayət qədər əmək ehtiyatları və maliyyəyə malikdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, ***"...biz müharibədə qalib gəldiyimiz kimi, Qarabağın bərpa edilib dirçəldilməsinin də öhdəsindən layiqincə gələcəyik".***

Təbii ki, bu istiqamətdə həyata keçirilən sistemli və məqsədyönlü tədbirlər ölkədaxili məcburi miqrasiyanın əsas subyektini təşkil edən məcburi köçkünlərin doğma yurdlarına qayıtmasına da münbit zəmin yaradıb. Yeri gəlmişkən, apardığımız haqq savaşının əsas prioritetlərindən biri də məcburi köçkünlərimizin öz yurdlarına geri qayıtmaq hüquqlarının təmin olunmasından ibarət idi. 44 günlük Vətən savaşından sonra həm hərbi, həm də siyasi baxımdan ölkəmizin şanlı Qələbəsini və işğalçı ölkənin faktiki olaraq kapitulyasiyasını rəsmiləşdirən üçtərəfli bəyanatda da bu müddəa xüsusilə öz əksini tapıb. Belə ki, bəyanatın 7-ci bəndinə əsasən daxili məcburi köçkünlər və qaçqınlar Qarabağ ərazisinə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıtmalıdır.

Bu gün hər bir azərbaycanlı tarixin ən şərəfli və vüqarlı günlərini yaşayır desək, hesab edirəm ki, yanılmarıq. Vaxtilə Azadlıq meydanında yanvar hadisələrinin tüğyan etdiyi zaman dönəmində əliyalın, ədalət arzulayan dinc insanlar artıq doğma torpaqlara ayaq basmağın sevincini, BÖYÜK QAYIDIŞın qürurunu yaşayır. Bu günə qədər şəhidlərimiz, xüsusilə də 20 Yanvarda həlak olan həmvətənlərimiz üçün axıdılan hər bir damla göz yaşında, şübhəsiz, ilk növbədə, qan rəngli qərənfil yada düşürdü. Xarıbülbül isə, bu mənada, canı və qanı bahasına tarix yazan şəhidlərimizin, qazilərimizin, işğalçıları doğma torpaqlarımızdan qovan igid oğullarımızın mübarizəsinin ən gözəl simvolu oldu. Qarabağ Azərbaycanın cənnəti sayıldığı kimi, bu çiçək də məhz cənnət rəmzidir.

Arif BAYRAMOV
Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi

Qazilər, şəhid ailələri və müharibə iştirakçıları üçün psixoloji tibbi yardımlar davam etdirilir

Azərbaycan Respublikası Hökumətinin dəvəti və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəstəyi ilə yanvarın 9-dan başlayaraq qazilər, şəhid ailələri və müharibə iştirakçıları üçün psixoloji yardımların göstərilməsi davam edir. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə nazirliyin psixoloqları və Türkiyə Respublikasından dəvət olunmuş ixtisaslı psixoterapevtlər tərəfindən canı-qanı bahasına torpaqlarımızı təcavüzkar düşməndən azad edərkən qazi olmuş qəhrəman oğullarımız və eləcə də onların ailələri, Vətən uğrunda, torpaq uğrunda canlarından keçən şəhidlərimizin ailələri və bu Vətənin hər qarışının azadlığı uğrunda sinəsini sipər edən müharibə iştirakçılarına psixoloji dəstək göstərmək məqsədilə təşkil olunan aksiya tam ödənişsiz və könüllülük prinsipi əsasında aparılır.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında aparılan psixoloji aksiyada iştirak edən şəxslər ixtisaslı psixoterapevtlər tərəfindən qəbul olunurlar. Mütəxəssis psixoterapevtlər bildirirlər ki, müharibədən qayıdan insanlarda müəyyən fəsadlarla – posttravmatik stress pozuntusu ilə rastlaşırıq. Həmin şəxslərin əvvəlki fəaliyyətlərini bərpa etmək və onlarda olan travmadan sonra qazanılan stress pozuntusunu aradan qaldırmaq məqsədilə aparılan seanslar zamanı müraciət edən şəxsin proseslərə reaksiyası da əsas rol oynayır. Belə ki, psixoloji seanslarda iştirak edən şəxslər arasında əvvəlki fəaliyyətini bərpa etmək və aldığı travmaları aradan qaldırmağa cəhd edən şəxslər üçün seanslar mütləq nəticə verir və travma tamamilə aradan qalxa bilir. Seanslarda müxtəlif psixoterapiya növlərindən istifadə olunur ki, bu da travma ilə əlaqəli xüsusi terapiya növlərinin tətbiqi zamanı yüksək effekt verir. Bu məqsədlə hər seansın əvvəlində və sonunda müəyyən testlər keçirilir və həmin testlər qarşılaşdırılır. Əldə olunan nəticənin fərqini müraciət edən şəxs özü də müşahidə etmiş olur.

Seanslarda iştirak etmək istəyənlər əvvəlcədən Fövqəladə Hallar Nazirliyinin ***112*** qaynar xəttinə zəng edərək qeydiyyatdan keçirlər. Pasiyentlə təkbətək aparılan seanslarda məxfilik tam qorunur. Müraciət edən şəxsin mənəvi-psixoloji probleminin ağırlıq dərəcəsindən asılı olaraq bir seans həftədə 1 və ya 2 dəfə olmaqla, bir saat müddətində aparılır.

Yanvar ayının 19-na olan məlumata görə, psixoloji dəstək aksiyasında iştirak etmək üçün, ümumilikdə, bu kateqoriyadan olan 163 nəfər qeydiyyatdan keçmişdir. Bu müddət ərzində qeydiyyatdan keçən şəxslərdən 110-u üçün 155 seans təşkil olunmuşdur. Hazırda seanslar növbəlilik prinsipi əsasında ardıcıl şəkildə davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti

İtmişdir

Naxçıvan şəhəri, 35-ci məhəllədə Abbasov Yəhya Fərəc oğlunun adına verilmiş 30.07.2009-cu il tarixli 14084 inventar nömrəli texniki pasport və MH-0013337 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kənd sakini Novruzov Emin Tofiq oğlunun adına verilmiş 30.03.2010-cu il tarixli AA-004049 nömrəli torpaq sahəsinin planı və ölçüsü, 02.04.2010-cu il tarixli MH-0016053 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ *qapısı*

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: **Muxtar Məmmədov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 54